

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

1933-cü ildən nəşr olunur

№ 22-23
(7259-7260) Cümə, 3 aprel 2015-ci il Qəzet ayda 4 dəfə çıxır Qiyməti 40 qəpik

## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti və Baş naziri, Dubayın Əmiri Əlahəzrət Şeyx Məhəmməd bin-Rəşid Əl-Maktum aprelin 1-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlmişdir.

Rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra İlham Əliyevin və Əlahəzrət Şeyx Məhəmməd bin-Rəşid Əl-Maktumun geniş tərkibdə görüşü olmuş, bir sıra məsələlər üzrə müzakirələr keçirilmiş, regional təhlükəsizlik və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. Sonra iki ölkə arasında sənədlər imzalanmışdır.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 31-də Özbəkistan Respublikasının Prezidenti İslam Kərimova yenidən ölkənin Prezidenti seçilməsi münasibətilə təbrik məktubu göndərmişdir.

* * *

Prezident İlham Əliyev Qazaxıstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Amangeldi Jumanbayevi diplomatik fəaliyyətminin başa çatması ilə əlaqədar qəbul etmişdir. Səfir Amangeldi Jumanbayev dövlətimizin başçısının həyata keçirdiyi müdrik daxili və xarici siyasətin onda böyük təəssürat yaratdığını və Azərbaycanda diplomatik fəaliyyəti dövründə ona yaradılan yüksək şəraitə görə Prezidentimizə dərin minnətdarlığını bildirmişdir.

* * *

Aprelin 1-də Azərbaycan Prezidenti İlham Əliyev rusiya Kinematoqrafçılar İttifaqının sədri, kinorejissor Nikita Mixalkovu qəbul etmişdir.

Nikita Mixalkov Azərbaycana səfərindən dərin minnətdarlıq hissi keçirdiyini və Bakıda misli görünməmiş inkişafın şahidi olduğunu bildirmişdir.

Görüşdə ölkələrimiz arasında mədəniyyətin, o cümlədən kinemotoqrafiya sahəsində əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Sonra Nikita Mixalkov Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim etmişdir.

* * *

Prezident İlham Əliyev görkəmli hərbi xadim, Azərbaycanın ilk milli atıcı diviziyasının komandiri Cəmşid Cəfərqulu oğlu Naxçıvanskinin anadan olmasının 120 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamışdır.

* * *

Ölkə başçısı Azərbaycan Respublikasının neft sənayesinin inkişafında xidmətlərinə görə Rövnəq İbrahim oğlu Abdullayevi “Şöhrət” ordeni ilə təltif etmişdir.

# İlham Əliyev Bakı Ağ Şəhər bulvarında həyata keçirilən inşaat işlərinin gedişi ilə tanış olub





Prezident İlham Əliyev Bakı Ağ Şəhər bulvarında həyata keçirilən inşaat işlərinin gedişi ilə tanış olub.

Dövlətimizin başçısına layihə çərçivəsində görülən işlər barədə məlumat verildi.

Bakı Ağ Şəhər bulvarı Prezident İlham Əliyevin tapşırığı ilə əvvəllər paytaxtın “Qara şəhər” kimi tanındığı və bir çox sənaye müəssisələrinin yerləşdiyi ərazisində ən müasir standartlara uyğun şəkildə salınır. 2013-cü ilin mayında Prezident İlham Əliyev tərəfindən təməli qoyulan yeni bulvarın inşası ekologiyası bərpa edilən sənaye zonasında həyata keçirilən və dünyanın ən iri müasir layihələrindən biri olacaq “Bakı Ağ Şəhər” layihəsini tamamlamaqla paytaxtımızın simasını daha da gözəlləşdirəcək. Prezident İlham Əliyev təməli qoyulduğu ilk gündən başlayaraq Ağ Şəhər bulvarında həyata keçirilən inşaat işlərinin gedişi ilə mütəmadi olaraq maraqlanır, vaxtaşırı tikinti meydançalarını gəzir, layihənin yüksək zövqlə icra olunmasına şəxsən nəzarət edir.

Bakı sakinlərinin və şəhərimizin qonaqlarının istirahəti üçün Ağ Şəhər bulvarında infrastruktur ən müasir tələblər səviyyəsində olacaq, müasir iaşə və xidmət obyektləri yaradılacaq. Burada dənizkənarı piyada yolları çəkiləcək, xüsusi yaşıllıq zonaları yaradılacaq, müxtəlif sahilbərkitmə işləri həyata keçiriləcək. Həmçinin bulvarda hərəkətin təhlükəsizliyini təmin etmək üçün piyada keçidləri də inşa ediləcək.

Bu nəhəng istirahət guşəsi sürətlə böyüyən və inkişaf edən Bakının görməli və gəzməli yerlərinə yeni bir ünvan da artıracaq. Bakı Ağ Şəhər bulvarı Ağ Şəhərdən Xəzərə açılan mənzərəni xüsusi bir yaraşıqla daha da cazibədar edəcək.

Dövlətimizin başçısı yeni bulvarın müxtəlif yerlərində aparılan inşaat işlərinin gedişi ilə maraqlandı və müvafiq tapşırıqlarını verdi.

**AZƏRTAC.**